# AZƏRBAYCAN RESPUBLİKASINDA KİTABXANA-İNFORMASİYA SAHƏSİNƏ DAİR QANUNVERİCİLİK SƏNƏDLƏRİNDƏ KİTABXANA İŞİNİN İNFORMASİYALAŞDIRILMASI MƏSƏLƏLƏRİ

***Aişə BAXŞIYEVA***
*Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının magistrantı*

***Вопросы информатизации библиотечной работы в библиотечно-информационной области законодательных документов Азербайджанской Республики***

***Резюме:*** *В статье рассмотрена информатизация и обобщающие материалы, касающиеся принятых законов, указов, и программ, научного, культурного и методического и практического характера, а также документы, касающиеся компьютеризации в области библиотечной работы республики*

***Library work informatization issues in the field of Library-Information Legislation documents in the Azerbaijan Republic.***

***Abstract:*** *This article contains of state laws, decrees, orders and programs which was adopted in the field of library-information and their scientific- cultural and methodical -practical essences in our Republic as well as interesting generalizations about informatization issues of library work.*

***Açar sözlər:*** *kitabxana, informasiya, hüquqi təminat, nəşr, sənəd, kompüter, texnologiya, biblioqrafik resurslar.*
***Keywords:*** *library, information, legalprovision, print, documents, computer, technology, bibliographic resources.*
***Ключевыеслова:*** *библиотека, информация, правовоеобеспечение, печать, документы, компьютеры, технологии, библиографических ресурсов.*

**Giriş.** Kitabxanalarıninformasiyalaşdırılmasında ən mühüm şərtlərdən biri informasiyalaşdırılmış cəmiyyətin yaranmasıdır. İnformasiyalaşdırılmış cəmiyyətin yaranması üçün iştirakçı olan bütün şəxslərin tələb olunan məlumatları lazımı səviyyədə bilməsi və istifadəçiyə təqdim olunan informasiya xidmətinin yüksək səviyyədə olması vacib şərtlərdən biridir. İnformasiyalaşdırılmış cəmiyyətə keçid zamanı böyük həcmdə olan informasiyanın mənimsənilməsi, emalı, yeni üsul və texnologiyaların öyrənilib tətbiq olunması olduqca böyük önəm kəsb edir.Qeyd edək ki, müasir dövrdə cəmiyyətin informasiyalaşmasında ən vacib vəzifə kitabxanaların üzərinə düşür.Məhz buna görədir ki, biz cəmiyyəti kitabxanaların hamisi kimi qəbul edirik.

İnformasiyalaşdırılmış cəmiyyətin əsas göstəricilərindən biri də işləyən əhalinin 50 faizindən çoxunun informasiya xidmətindən istifadə edə bilməsi, müasir informasiya texnologiyalarından baş çıxarmasıdır. Məhz buna görədir ki, müasir dövrdə informasiyalaşdırma və mediatirasiya(informasiyanı surətlə vermək və qəbul etmək üçün tətbiq edilən inteqral sxemlər) prosesi qlobal

xarakter almağa başlamışdır. Bu isə informasiyalaşdırılmış cəmiyyətə kecmək üçün cəmiyyət üzvlərinin müəyyən imkanlara malik olmasını zəruri edir.(3, s.12).

Mədəniyyətin ayrılmaz hissəsi olan kitabxana və cəmiyyət problemi lap qədim dövrlərdən başlayaraq müasir dövrümüzə qədər həmişə sosial həyatın mühüm tərkib hissəsi kimi cəmiyyətin mənəvi- intellektual həyatına təsr göstərən bir vasitə kimi daim diqət mərkəzində olmuşdur.Cəmiyyət hər şeydən əvvəl, ayrı-ayrı insanların cəmidir.Yəni konkret insan, fərdolmazsa, cəmiyyət də ola biməz.Cəmiyyəti təşkil edən insanlar xarakterik xüsusiyyətlərinə, baxışlarına, peşələrinə, psixoloji durumlarına və digər əlamətlərinə görə fərqli olsalar da, onlar birgə yaşamağa və fəaliyyət göstərməyə məhkumdurlar.İnsan fəaliyyətinin nəticəsi kimi meydana çıxan cəmiyyət öz mövcudluğu üçün bu fəaliyyətə borcludur.Cəmiyyətiformalaşdıraninsaların mürəkkəb və müxtəlif əlaqə və münasibətləri onu mürəkkəb bir sistemə çevirir.

**Məsələnin qoyuluşu.** Cəmiyyətin mövcudluğu üçün ən zəruri ünsürlərdən biri maddi ünsür hesab olunur. Çünki cəmiyyət yalnız fərdlərdən deyil, maddi ünsürlərdən də ibarətdir.

Təsadüfi deyil ki, məşhur fransız sosioloqu E. Dürkheym deyir: "Maddi ünsürlərsiz insanın mövcudluğu mümkün olmadığı kimi, cəmiyyətində mövcudluğu mümkün ola bilməz. Cəmiyyət dedikdə biz eyni zamanda insanların yaşayışını və həyatını təmin edən yolları, evləri, fabrik və zavodları və s. nəzərdə tuturuq." (4, s.16).

Cəmiyyətin inkişafına, onun daha da təkmilləşməsinə təsir edən amillərdən biri də insanların birgə yaşayış tərzini zaman keçdikcə təkmilləşdirməsi olmuşdur.

Dünyanın əksər ölkələrində cəmiyyətə göstərilən kitabxana xidmətinin, sənəd informasiya təminatının təşkili səviyyəsi milli prioritetə malik məsələ kimi qiymətləndirilir. Bu sahənin inkişafına həm rəsmi orqanlar, həm işgüzar dairələr həm də qeyri-hökümət təşkilatları tərəfindən böyük diqqət və qayğı göstərilir. Çünki kitabxana siyasəti dövlətin həm iqtisadi, həm təhsil, həm mədəniyyət həm də informasiya siyasətinin üst-üstə düşdüyü sahədir. Cəmiyyətin sənəd informasiya tələbatının ödənilməsi funksiyasını həyata keçirən bir təsisat kimi kitabxanalar vətəndaş cəmiyyətinin formalaşmasında zəruri vasitə rolunu oynayırlar. Kitabxanaların informasiya resurslarının zaman və məkan məhdudiyyəti yoxdur.

Azərbaycan kitabxanaları Azərbaycan xalqının milli sərvətidir. Xalqımızın yaratdığı qiymətli tarixi-mədəni, ədəbi-bədii və elmi-fəlsəfi irsin toplanıb saxlanmasında, bəşər mədəniyyətinin qazandığı nailiyyətlərin nəsildən-nəslə çatdırılmasında və cəmiyyətimizin intellektual-mənəvi potensialının artırılmasında kitabxanalarımız əvəzsiz roloynayır.

Ölkəmiz qədim dövrlərdən başlayaraq, öz yüksək kitab mədəniyyəti ilə seçilmiş və zəngin kitabxanaları ilə tanınmışdır. Azərbaycanın müxtəlif kitabxanalarında saxlanılan və xalqımızın ədəbi-estetik, elmi-mədəni fikir dünyasını əks etdirən çox sayda əlyazma XIX əsrin əvvəllərindən regionda



cərəyan edən hadisələr nəticəsində ölkə xaricinə aparılmış və bu gün də dünya kitabxanalarında Şərq fondlarının əsasını təşkil edərək mühafizə olunur.

XIX əsrdə Azərbaycanda maarifçilik hərəkatının güclənməsi, neft sənayesinin görünməmiş yüksəlişi və ictimai-siyasi həyatda baş verən dəyişikliklər ölkəmizin elm-mədəniyyət mərkəzi kimi tanınan şəhərlərində kitabxanalar şəbəkəsinin yaradılması və genişləndirilməsinə gətirib çıxarmışdır.

XX əsrdə milli kitabxana mədəniyyəti tarixinin yaddaqalan hadisələri baş vermiş və respublikanın ən böyük kitab xəzinələri yaradılmış, bütün bölgələri əhatə edən geniş kitabxanalar şəbəkəsi qurulmuş və mərkəzləşdirilmiş, kitabxanaların maddi-texniki bazası möhkəmləndirilmiş və Kitab palatası təşkil edilmişdir.(6, s.49).

Ölkədə hüquqi dövlətin qurulmasının mühüm istiqamətlərindən birini də əhaliyə kitabxana informasiya xidmətinin hüquqi bazasının formalaşdırılması təşkil edir. Kitabxana müasir hüququn tam subyekti olduğundan ölkədə kitabxana işi sahəsində dövlət siyasətinin əsas prinsipləri, bu işin təşkilinin əsaslarını, maliyyələşdirmə mənbələrini, vətəndaşların hüquq və vəzifələrini, kitabxana işi sahəsində beynəlxalq əməkdaşlığın mühüm prinsiplərini və s. məsələləri tənzimləyən hüquqi sənədlərdən səmərəli istifadə edilməsi kitabxana menecmentinin olduqca vacib şərtlərindən biridir. Kitabxanalar cəmiyyətdə informasiya daşıyıcılarının mühafizəsini və istifadəsini təmin edən elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisələri kimi xüsusi hüquqi statusa malik olan sosial institutlardır.

On ildən artıq bir müddət ərzində müstəqillik şəraitində yaşayan Azərbaycan Respublikası qanunların aliliyinin təmin olunduğu hüquqi dövlət quruculuğu istiqamətində ciddi addımlar atmaqdadır. Bu şəraitdə bütün sahələrdə olduğu kimi, kitabxana işi sahəsində də müasir dövrlə səsləşən qanunvericilik aktlarının, normativ-hüquqi sənədlərin olmasına böyük ehtiyac vardır.Məhz bu vacib amilin nəticəsi kimi respublikamızın Milli Məclisi "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununu 29 dekabr 1999-cu ildə qəbul etmişdir.Bu qanun 6 fəsil 34 maddədən ibarətdir.Bu Qanun Azərbaycan Respublikasında kitabxana işi sahəsində dövlət siyasətinin əsas prinsiplərini, kitabxana işinin və kitabxana sisteminin ümumi əsaslarını, kitabxana fondlarının formalaşdırılması və mühafizəsi tələblərini, kitabxanaların maliyyələşdirilmə mənbələrini, kitabxanalardan istifadə sahəsində vətəndaşların hüquq və vəzifələrini, kitabxana işi sahəsində beynəlxalq əməkdaşlığın prinsiplərini müəyyən edir. "Kitabxana işi haqqında" və "Muzeylər haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2007-ci il 16 iyun tarixli 390-IIIQD nömrəli Qanununun qüvvəyə minməsi haqqında qərar qəbul olunmuşdur. (4, s.89).

Azərbaycan Respublikasında kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması, elmi-mədəni sərvətlərdən hərtərəfli istifadə imkanlarının genişləndirilməsi, cəmiyyətin informasiya təminatının artırılması, eləcə də Azərbaycan kitabxanalarının dünya informasiya məkanına daxil olmasının təmin edilməsi

məqsədi ilə"Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"təsdiqedilmişdir. (1).Müstəqil Azərbaycan Respublikasında aparılan islahatlar içərisində latın qrafikalı Azərbaycan əlifbasının barpa edilməsi böyük tarixi əhəmiyyət kəsb edir.Ulu öndərimizin Milli Kitabxanamıza xüsusi qayğısının bariz nümunələrindən biri 2000-ci ildə kitabxanamızın binasında əsaslı yenidənqurma işlərinin aparılması və texniki təchizatının gücləndirilməsi barədə verdiyi tapşırıq olmuşdur. 2000-ci ilin may ayında Nazirlər Kabinetində keçirilən müşavirədə Avropa Şurasının ayırdığı dövlət qrantı hesabına Ərazilərin Bərpası və Yenidən Qurulması Agentliyinin xətti ilə bərpa olunması nəzərdə tutulan 3 ən mühüm müəssisə seçilərək ulu öndərə təqdim olunarkən, ulu öndər "M.F.Axundov adına Dövlət Kitabxanasını götürün, Azərenerji və Bakı Şəhər İcra Hakimiyyəti özləri vəsait taparlar", dedi. Milli Kitabxanada oxucular üçün yaradılan bu gözəl şərait, kitabxanamızın saytının, elektron kataloqunun, elektron kitabxanasının yaradılması və onun virtual rejimdə bütün dünyaya yayılması məhz ulu öndərin kitabxanaya qayğı və diqqətinin nəticəsi hesab oluna bilər. (5, s.33).

İnformasiyalı cəmiyyətin əsasında informasiya texnologiyaları durur. Onların elmi baxımdan dərk edilməsi ümumi texnologiyanın nəzəri əsaslarına söykənir. Sonuncusu isə öz növbəsində sənaye texnologiyası mühitindən yaranmışdır.

Məlumdur ki, müasir dövrdə kitabxanaları yeni texnologiyalarsız təsəvvür etmək olmaz. XXI əsrin informasiya texnologiyalarının xarakterik inkişaf istiqamətləri içərisində müxtəlif növlü, tipli və məzmunlu sənədləri mühafizə edən elektron informasiya daşıyıcılarınınhazırlanması, sistemləşdirilməsi, mühafizəsi və şəbəkə rejimində uzaq məsafədən istifadəsi vacib yer tutur.Bütün bu istiqamətlər kompleks şəkildə elektron kitabxanaların yaradılmasında və elektron kitabxana-informasiya təminatının təşkilində ifadə olunur. (7, s.17).Elektron kataloq- informasiya cəmiyyətinin baza prinsiplərinə, informasiyanın əmtəəyə çevrilməsinə, informasiya bazarının formalaşmasına, cəmiyyət üzvlərinin peşə və təhsil hazırlığının yüksəlməsinə, qlobal informasiya mühitinin yaranmasına xidmət edir. Elektron kitabxana-oxuculara informasiya xidmətinin kompüterləşməsinin nəticəsi olub, yalnız bir xidmət növüdür.Bu, oxuculara uzaq məsafədən daha dolğun informasiya xidməti göstərərək, bu xidmətin zaman və məkandan asılılığına son qoyur.Elektron kataloq müxtəlif sosial qurumlar, həmçinin, ənənəvi kitabxanalar tərəfindən yaradılan və şəbəkə xidməti imkanlarını xeyli dərəcədə genişləndirənsuperaçıq informasiya sistemidir.Onlar tarixən mövcud olan şəbəkə kitabxana-informasiya xidmətinin yeni metod vasite və texnologiyalar baxımdan məntiqi davamıdır. (6, s.29).

XXI əsr dünya svilizasiyası informasiya- kommunukasiya texnologiyaları ilə xarakterizə olunur. 2000-ci ildə dünyada internet istifadəçiləri cəmi 246 milyon qeydə alınmışdırsa, 2007-ci ildə onların sayı bir milyarda çatmışdır.Əsrin əvvəllərində dünya ictimayətinininformasiyalaşdırılması insan fəaliyyətinə çoxaspektli təsir göstərmişdir.Əsasən siyasi-iqtisadi, elm, mədəniyyət və təhsil



sahəsində özünü daha çox biruzəvermişdir.Və bu proses qlobal informasiya məkanının formalaşmasına təsir göstərmişdir."Qlobal informasiya məkanı" termini özünü iki əsrin növbələşməsində, informasiya və texnoloji inqilabın son nailiyyətlərinin bir çox dünya ölkələri təcrübəsində tətbiqi ilə əks etdirir. Beynəlxalq sənədlərdə bəhs edilən bu məsələ əsasən, "Qlobal kiberməkan" kimi qeyd olunur. (5, s.54). Hal-hazırda, tədqiqatçılar əksəriyyəti hesab edir ki, beynəlxalq ictimaiyyətin həyatında informasiya və kommunikasiya texnologiyaları, informasiya resursları və infrastrukturu bir sıra qlobal informasiya məkanının dövlət və dövlətlərarası kompüter şəbəkələri, telekommunikasiya sistemləri və ictimai şəbəkələri və digər sərhəd rabitə kanalları vardır.

İnformasiya resurslarına mətn sənədləri, məlumat bazaları, audio və vizual sənədlər, qrafik materiallar, və veb səhifələr daxildir. Qloballaşma prosesində, İKT-nin diffuziyası nəticəsində yığılmış informasiya ehtiyatları kimi dünyəvi qəbul edilə bilər. Bunların vahid informasiya məkanında birləşməsi informasiya və kommunikasiya infrastrukturunun vasitəsilə baş verir. Bu özündə bir sıra ictimai və korporativ informasiya bölgüsü sistemlərini, kommunikasiya xətlərini, şəbəkə və məlumat kanallarını, kommunikasiya qurğuları və məlumat idarəetmələrini əks etdirir. (2).İKT-nin səmərəli fəaliyyət göstərməsi üçün, hüquqi və tənzimləyici mexanizmlərin tətbiqi lazımdır. "Biliyə əsaslanan cəmiyyət"in və azad dünya iqtisadiyyatında informasiya sektorunun yaranması birbaşa olaraq informasiya sənayesi və ilə sıx bağlıdır. Müasir kitabxanaların əsas funksiyalarından biri, istehsal informasiya resurslarının hazırlanması, emalı, və informasiya xidmətinin göstərilməsidir. Əvvəllər heç vaxt kitabxanalara istehsal sistemi kimi baxılmırdı, hazırda kütləvi və müstəqil kitabxanaların fəaliyyəti İKT-nin kitabxana təcrübəsinə tətbiqi ilə mümkün olmuşdur.Bu gün kitabxanaların informasiyalaşdırılması prosesi aktiv kompüterləşdirilmə, AKİS-lərin yaranması və informasiyanın çatdırılmasında istifadə olunan müasir kommunikasiya vasitələrinin tətbiqi ilə xarakterizə olunur.

Bu aspektdə əsas mərhələ korporotiv kitabxana sisteminin yaradılması hesab olunur. AKİS-lərə inteqrasiya vəvahid informasiya resurslarından istifadə linqivistik, proqram texniki uyğunluğu tələb edir.Yerli, milli və regionalinformasiya resursları və informasiya kommunikasiya infrastrukurunun vəziyyəti qlobal informasiya məkanının formalaşmasına həlledici təsir göstərir. Lakin onun formalaşmasında bir çox maneələr var ki, bu da informasiya və kommunikasiya resurslarına qeyri-bərabər girişdə yaranır. Bu gün sosioloqların əksəriyyətinin fikrinə görə, bir çox Qərb və Rusiya Qloballaşma tərəfdarlarının yazdığı kimi "Qloballaşmanın müasir prosesləri" cəmiyyətin sosial iqtisadi həyatının bütün aspektlərindəgeniş miqyaslı deyil. İnformasiya texnologiyaları inqilabıplanetin bir çox regionlarının zaman və məkan məhdudiyyəti olmadan bir-biri ilə əlaqə saxlamasına imkan yaradır. (3, s.39).

**Nəticə.**Rəqəmsalassimetriyanın əsas vəzifələrindən biri informasiya məhsullarının və xidmətinin kommersiyalaşdırılması və inhisarına xidmət etməkdir. İKT-nin dünya bazarında öyrənilməsinin əks olunduğu və keçən il nəşr

olunan "Siyasi işlər" jurnalının səhifəsində kimin bu sahədə inhisar mövqe tutması aydın olaraq göstərilir. 2002-ci ilin məlumatlarına görə 34 ölkədə fəaliyyət göstərən 250 "Parlaq informasiya biznesinin iyerarxik piramidası" firmasından 150 (60%) ABŞ-a və 42 (17%) Yaponiyaya məxsus olmuşdur. 20002-2005-ci illərdə yeni rəqiblərin gəlməsi bu rəqəmlərin dəyişməsinə baxmayaraq, AB və Yaponiya öz qabaqcıl mövqeyini – 116 (46%) və 39 (16%) müvafiq olaraq qoruyub saxlamışdır. (4, s.30).

Qərb ölkələri post sənaye inkişafı yolunda nəinki İKT istehsalını inhisarlaşdırdılar, həm də onu özlərinin intellektual mülkiyyətinə çevirdilər. İKT sənayesinin əsas komponentlərinin konsetrasiyası "Seçilmiş klubların" səlahiyyətində olan "Yüksək texnologiya" dünyasında öz qiymətlərini diktə etməyə imkan verir. Bu da "Rəqəmsalassimetriya"nın daha da güclənməsinə gətirib çıxarır.

Məlumat sahəsində öz geriliyini azaltmaq üçün bir çox yoxsul ölkələr İKT-nin tətbiqinə zəngin ölkələrdən (faiz baxımından) daha çox investisiya ayırıblar.

**Ədəbiyyat**

1."İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu// Azərbaycanın qanunvericilik toplusu.-B., 1998.-№6.-s.1214-1222.
2."Kitabxana işi haqqında" Azərbaycan Respublkasının Qanunu//Azərbaycan.-1999.-14 mart.
3.İsmayılov X.İ. Kitabxana işinin təşkili və idarə olunması:(Dərslik).-B.: "Nurlar", 2010.-328 s.
4.İsmayılov X.İ. Kitabxana-informasiya texnologiyaları: Monoqrafiya.-B.: "Nurlar", 2009.-312s.
5..İsmayılov X.İ. Kitabxanaların idarə edilməsinin müasir problemləri// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal.-2009.-№1.-s.6-14.
6.Xələfov A.A., Qurbanov A.İ. Kitabxanaların kompüterləşdirilməsinin əsasları: (Dərslik).-B.: Bakı Universiteti Nəşriyyatı, 2006.-250s.
7.Kazımi P.F. İnformasiya mühəndisliyi: (Monoqrafiya).-B.: Bakı Universiteti Nəşriyyatı.-215s.